# “Marş Sığorta və Təkrar Sığorta üzrə Broker” Məhdud Məsuliyyətli Cəmiyyəti

31 dekabr 2022-ci il tarixinə bitən il üzrə
Maliyyə Hesabatları və
Müstəqil Auditor Hesabatı

## "MARŞ SIĞORTA VƏ TƏKRAR SIĞORTA ÜZRƏ BROKER"
## MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu siyasətlərinin müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu siyasətlərinin müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Şirkətin maliyyə vəziyyətinə və maliyyə nəticələrinə təsirini anlamağa kömək göstərmək üçün MHBS-nin xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamaların verilməsinə; və
- Şirkətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuldur:

- Şirkətdə sağlam və effektiv daxili nəzarət sisteminin tərtibi, tətbiqi və saxlanılmasına;
- Şirkətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Şirkətin maliyyə hesabatlarının MHBS-yə uyğunluğunu təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu standartlarına müvafiq olaraq yerli uçot qeydlərinin aparılmasına;
- Şirkətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlərin görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Şirkətin 31 dekabr 2022-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması Şirkətin rəhbərliyi tərəfindən 30 mart 2023-cü il tarixində təsdiqlənmişdir.

Şirkətin rəhbərliyi tərəfindən:

| | |
|---|---|
| **Tamilla Əsgərova** | **Murad Muradov** |
| Direktor | Baş Maliyyə Direktoru |
| 30 mart 2023-cü il | 30 mart 2023-cü il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

«MARŞ» Sığorta və Təkrar Sığorta üzrə Broker Məhdud Məsuliyyətli Cəmiyyəti MARSH «MARSH» Insurance and Reinsurance Broker Limited Liability Company

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofis Binası,
8 noyabr prospekti 25E,
Bakı, AZ1025, Azərbaycan
Tel: +994 (12) 404 12 10
Fax. +994 (12) 404 12 11
deloitte.az

# MÜSTƏQİL AUDİTOR HESABATI

"Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına

## Rəy

Biz "Marş Sığorta və Təkrar Sığorta üzrə Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

## Rəyin Əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("MBESŞ Məcəlləsi")* uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

## Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited ("DTTL"), onun üzv şirkətlərinin qlobal şəbəkəsi və əlaqəli qurumları da daxil olmaqla, sadalananlardan birinə və ya bir neçəsinə istinad edir. DTTL (həmçinin "Deloitte Global" adlanan) və onun üzv şirkətlərinin hər biri hüquqi olaraq fərdi və müstəqil qurumlardır. DTTL müştərilərə xidmət göstərmir. Daha ətraflı məlumat üçün www.deloitte.com/about müraciət edin.

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürülməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

- Maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış olanların aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə önəmli şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı və audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar daxil olmaqla mühüm audit tapıntıları barədə məlumat veririk.

Deloitte Touche LLAC

MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ

30 mart 2023-cü il

## "MARŞ SIĞORTA VƏ TƏKRAR SIĞORTA ÜZRƏ BROKER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
*(min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|
| Broker haqqı | 5 | 1,683 | 1,994 |
| Əməliyyat xərcləri | 6 | (1,195) | (1,032) |
| Ticarət debitor borclarının dəyərsizləşməsindən yaranan (xərc) / bərpası | | (9) | 69 |
| **Əməliyyat mənfəəti** | | **479** | **1,031** |
| İcarə öhdəliyi üzrə faiz xərci | | (6) | (11) |
| Məzənnə fərqindən yaranan gəlir | | 240 | 158 |
| Məzənnə fərqindən yaranan xərc | | (236) | (212) |
| **Vergidən əvvəl mənfəət** | | **477** | **966** |
| Mənfəət vergisi xərci | 7 | (114) | (134) |
| **İL ÜZRƏ MƏNFƏƏT VƏ CƏMİ MƏCMU GƏLİR** | | **363** | **832** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "MARŞ SIĞORTA VƏ TƏKRAR SIĞORTA ÜZRƏ BROKER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
*(min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıq | 10 | 52 | 126 |
| Qeyri-maddi aktivlər | | 26 | 27 |
| Təxirə salınmış vergi aktivi | 7 | 47 | 60 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **125** | **213** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ödənilmiş avanslar | | 21 | 17 |
| Vergi debitor borcları | | - | 16 |
| Ticarət debitor borcları | 8 | 2,649 | 4,179 |
| Pul vəsaitləri | 9 | 2,174 | 2,295 |
| Qısamüddətli mənfəət vergisi aktivi | | 69 | - |
| **Cəmi qısamüddətli aktivlər** | | **4,913** | **6,507** |
| **Cəmi aktivlər** | | **5,038** | **6,720** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital və ehtiyatlar** | | | |
| Nizamnamə kapitalı | | 10 | 10 |
| Bölüşdürülməmiş mənfəət | | 963 | 1,300 |
| **Cəmi kapital** | | **973** | **1,310** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| İcarə öhdəlikləri | 12 | - | 36 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **-** | **36** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 11 | 3,967 | 5,239 |
| Vergi kreditor borcları | | 62 | 34 |
| Qısamüddətli mənfəət vergisi öhdəliyi | | - | 32 |
| İcarə öhdəlikləri | 12 | 36 | 69 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **4,065** | **5,374** |
| **Cəmi öhdəliklər** | | **4,065** | **5,410** |
| **Cəmi kapital və öhdəliklər** | | **5,038** | **6,720** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**"MARŞ SIĞORTA VƏ TƏKRAR SIĞORTA ÜZRƏ BROKER"**
**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
***(min Azərbaycan Manatı ilə)***

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | **10** | **1,163** | **1,173** |
| Elan olunmuş və ödənilmiş dividendlər | - | (695) | (695) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | 832 | 832 |
| **31 dekabr 2021-ci il tarxinə qalıq** | **10** | **1,300** | **1,310** |
| Elan olunmuş və ödənilmiş dividendlər | - | (700) | (700) |
| İl üzrə mənfəət və cəmi məcmu gəlir | - | 363 | 363 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **10** | **963** | **973** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "MARŞ SIĞORTA VƏ TƏKRAR SIĞORTA ÜZRƏ BROKER" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
*(min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ:** | | | |
| İl üzrə mənfəət | | 363 | 832 |
| Düzəlişlər: | | | |
| Mənfəət vergisi xərci | 7 | 114 | 134 |
| Köhnəlmə və amortizasiya | 6 | 74 | 74 |
| İcarə öhdəlikləri üzrə faiz xərci | | 6 | 11 |
| Məzənnə fərqindən yaranan (gəlir) / xərc, xalis | | (4) | 54 |
| Digər gəlir | | - | (11) |
| Ticarət debitor borclarının dəyərsizləşməsindən yaranan xərc / (bərpası) | | 9 | (69) |
| Hesablanmış ehtiyat | 11 | 50 | - |
| Vergi debitor borclarının ləğvi | | 14 | - |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə pul vəsaitləri** | | **626** | **1,025** |
| Ödənilmiş avanslarda (artım) / azalma | | (4) | 8 |
| Vergi debitor borclarında azalma / (artım) | | 2 | (16) |
| Ticarət debitor borclarında azalma | | 1,517 | 2,781 |
| Vergi kreditor borclarında artım / (azalma) | | 28 | (13) |
| Ticarət və digər kreditor borclarında azalma | | (1,295) | (2,521) |
| **Əməliyyatlar üzrə yaranan pul vəsaitləri** | | **874** | **1,264** |
| Ödənilmiş mənfəət vergisi | | (202) | (235) |
| **Əməliyyat fəaliyyətləri üzrə əldə olunan xalis pul vəsaitləri** | | **672** | **1,029** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | - | (10) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **-** | **(10)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ:** | | | |
| İcarə öhdəliklərinin ödənilməsi | | (75) | (75) |
| Ödənilmiş dividendlər | | (700) | (695) |
| **Maliyyə fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(775)** | **(770)** |
| **Pul vəsaitlərində xalis (azalma) / artım** | | **(103)** | **249** |
| **Pul vəsaitləri, ilin əvvəlinə** | | **2,295** | **2,098** |
| Valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyutada saxlanılan pul vəsaitlərinə təsiri | | (18) | (52) |
| **Pul vəsaitləri, ilin sonuna** | 9 | **2,174** | **2,295** |

Əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.